Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2026, **s. 57-63**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2026, **с. 57-63**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2026, **p. 57-63**

UOT 372,8:78

F.İ.Rzayeva
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi,68
e-mail:firangiz-rzayeva@mail-ru

MƏKTƏBLİLƏRİN FƏNLƏRARASI SİNTEZ PROSESİNDƏ PSİXOLOJİ PROSESLƏRİN İNKİŞAFI

https://doi.org/10.30546/170899876.101.01.2026.57

Açar sözlər: *musiqi təhsili, musiqi dərsi, fənlərarası sintez, qavrama, obrazlı təfəkkür, təxəyyül*

Məqalədə qeyd olunur ki, məktəblərdə psixoloji və pedaqoji elm və təcrübədə fənlərarası bilikləri cəlb edərək musiqi vasitəsilə qavrama, obrazlı təfəkkür və təxəyyülün inkişafı problemi böyük əhəmiyyət kəsb edir. Bu, həm musiqi əsərlərinin fəal qavranılması, həm də müxtəlif yaş dövrlərində məktəblilərin əqli fəzliyyətləriunin xüsusi əhəmiyyəti ilə əlaqəlidir. Musiqi dərslərində müxtəlif elm sahələrinə aid elementar biliklərdən istifadə bu sənət növünün bədii, əxlaqi və estetik mahiyyətini dərk etməyə, həyatın mənəvi və maddi dəyərləri əsasında olan aşkar əlaqələrə əmin olmağa imkan yaradır.Yaradıcılıq fəaliyyətində məmnunluq, zövqalma, uğur, özünəgüvən və onlara əks olan emosiyalar böyük əhəmiyyətə malikdir. Bunlar əqli əməliyyatlar nəticəsində müvafiq obrazlı təsəvvürlərə çevrilirlər.

Ф.И.Рзаева

РАЗВИТИЕ ПСИХОЛОГИЧЕСКИХ ПРОЦЕССОВ В ХОДЕ МЕЖДИСЦИПЛИНАРНОГО СИНТЕЗА У ШКОЛЬНИКОВ

Ключевые слова: *музыкальное образование, урок музыки, междисциплинарный синтез, восприятие, образное мышление, воображение*

В статье отмечается, что в школах проблема развития восприятия, образного мышления и воображения учащихся посредством музыки, включающая междисциплинарные знания в области психологической и

педагогической науки и практики, имеет большое значение. Это связано как с активным восприятием музыкальных произведений, так и с их особой ролью в развитии их умственной деятельности в разные возрастные периоды. Использование элементарных знаний относящихся к различным областям науки на уроках музыки позволяет понять художественную, моральную и эстетическую сущность этого вида искусства, убедиться в очевидной связи между духовными и материальными ценностями жизни. В творческой деятельности большое значение имеют удовлетворение, удовольствие, успех, уверенность в себе и противоположные им эмоции. В результате умственных операций они трансформируются в соответствующие образные представления.

F.I.Rzayeva

DEVELOPMENT OF PSYEHOLOGICAL PROCESSES IN THE OF INTERDISCIPLINARY SYNTHESIS OF SCHOOLCHILDREN

The article notes that in schools, the problem of developing students perception, figurative thinking, and imagination through music, involving interdisciplinary knowledge in psychological and pedagogical science and practice, is of great importance. This is associated with both the active perception of musical works and their special role in the development of their mental activity at differentage periods. The use of elementary knowledge related to various fields of science in music lessons allows us to understand the artistic, moral and aesthetic essence of this art form, to be convinced of the obvious connectionsamong the spiritual and material values of life. In creative activity,satisfaction, enjoyment,success, self-importance.These are transformed into the corresponding figurative representatious as a result of mental operations.

Gənc nəslin estetik tərbiyəsinin innovativ yollarının axtarışı cəmiyyət həyatının bütün sahələrinin humaniləşdirilməsinə artan tələbat ilə əlaqədardır. Bu məqsədin reallaşmasının qeyri-şərtsiz mənbəyi gənc nəslin yüksək keyfiyyətli təhsil alması, onların daim mənəvi zənginləşməsidir. Məhz bu səbəbdən pedaqoji prosesdə son dərəcə əhəmiyyətli rol estetik yönümlü, bizim halda isə, musiqi fənninin tədrisi xüsusi yer tutur.

Psixoloji-pedaqoji elm və təcrübədə fənlərarası bilikləri cəlb edərək musiqi vasitəsilə məktəblilərdə qavrama, obrazlı təfəkkür və təxəyyülün inkişafı problemi böyük əhəmiyyət kəsb edir. Bu, həm musiqi əsərlərinin fəal qavranılması, həm də müxtəlif yaş dövrlərində məktəblilərin əqli fəaliyyətlərinin xüsusi əhəmiyyəti ilə

əlaqəlidır.

Musiqi dərslərində müxtəlif elm sahələrinə aid elementar biliklərdən istifadə bu sənət növünün bədii, əxlaqi və estetik mahiyyətini dərk etməyə, həyatın mənəvi və maddi dəyərləri arasında olan aşkar əlaqələrə əmin olmağa imkan yaradır. İnteqrasiyanın digər aspekti təbiət elmləri və humanitar fənlər üzrə suallara musiqi ifadə vasitələrində cavab tapmaqla əlaqılidir. Musiqi dərslərində şagirdlərin qavrama, obrazlı təfəkkür və təxəyyülün inkişafının fənlərarası sintez prosesində aparılması məntiqi və məqsədəuyğundur.

Pedaqoji təcrübənin ümumiləşdirilməsi və musiqi təhsili vəziyyətinin təhlili aşağıda göstərilən ziddiyyətləri üzə çıxarmışdır:

- məktəblilərdə fənlərarası sintez prosesində qavrama, obrazlı təfəkkür və təxəyyülün inkişaf etdirilməsi zərurəti, problemin həlli üçün metodoloji əsasların qeyri-müəyyənliyi arasında;

- məktəbdə tədris olunan fənlər sırasında musiqi dərsi statusunun aşağı qiymətləndirilməsi ilə şagirdlərin mənəvi-estetik tərbiyəsində onun obyektiv əhəmiyyəti arasında;

- tədris proqramına uyğun olaraq dərs üçün nəzərdə tutulan musiqi repertuarın seçilməsi ilə şagirdlərin musiqi maraqlarının, üstünlüklərin nəzərə alınması zərurəti arasında;

- məktəblilərdə emosional həssaslığın tərbiyəsində musiqinin fundamental əhəmiyyəti ilə onun digər fənlər ilə əvəz etmək üçün sistemli cəhdlər arasında (xüsusilə ibtidai siniflərdə).

Təxəyyülün və obrazlı təfəkkürün insan şüurunda rolunun dərk edilməsi, onun mənəvi və maddi təcəssümü fəlsəfi biliyi əsaslarının meydana çıxması ilə başlamışdır. Alimlər obrazlı təfəkkürün genezisi və təbiət haqqında müxtəlif fərziyyələr irəli sürmüş, çox zaman onu ziddiyyətli (bir-birinin tam əksi) metodoloji mövqelərdən görmüşlər. Belə ki, qədim yunan filosofu Aristotel ideyaların formalaşmasında təfəkkür obrazlarının roluna diqqət vermişdir. "Ruh haqqında" (3), "Yaddaş və xatırlama haqqında" (4) məşhur traktatlarında təxəyyül və obrazlı təfəkkürü yaddaşın bir növü kimi təqdim edir.Burada onun hərəkət və zamanın psixoloji əksi ilə əlaqəsini izləmək mümkündür. Bu asılılığın müşahidəsi insan tərəfindən müxtəlif sənət növlərinin və xüsusən də musiqinin qavranılmasında təxəyyül xassəsinin əhəmiyyətini dərk etməyə yardım edir.

Alman klassik fəlsəfəsinin banisi İ.Kant təsəvvürləri insan təcrübıəsinin törəmə hədisəsi hesab edir. (7) Alman filosofu A.Şopenhauer bu xassəni tamamilə fərqli səciyyələndirmiş və onu biliyin əsasına aid etmişdir.Alim şüurumuzun yaratdığı obraz kimi dünyanı "təmsil"lə eyniləşdirən "özlüyündə seylər" nəzəriyyəsinin müəllifi İ.Kanta qarşı çıxış edirdi. Onun fikrinə görə "yalnız insan həqiqəti reflektiv-mücərrəd şüur səviyyəsinə qaldıra bilər... İnsan nə günəşi, nə də yeri tanıyır, lakin günəşi görən gözü, yerə toxunan əli ilə bilir... ətraf aləm ancaq

təsəvvür kimi mövcuddur, insanın özü də buna aiddir". Alimin elmi baxışlarına görə məkan, zaman bizim təsəvvürlərimizin formalarıdır.

Qavramanın əsasını təşkil edən obrazlı təsəvvürlərin estetik funksiyasının təcəssümü probleminin həlli ilə alman filosofu və psixoloqu G.T.Fexner məşqul olmuşdur. Onun nəzəriyyəsinin kvintessensiyası təhsil prosesinin estetik effekti və buna əlavə edilən təsəvvürlər - xatirələr kimi başa düşülməsindədər ki,bunlar dinləyicinin estetik emosionallığının zənginləşməsinə və savadlılığına yardım edir. Musiqişünas Huqo Riman bədii obrazlı təsəvvürləri tədqiq etmişdir. (8) Musiqi qavrayışı mürəkkəb təfəkkür prosesi ilə əlaqəlidir. Bunun nəticəsində şüurlu musiqi obrazı yaranır və tədricən müəyyən şəklə düşür. O, melodik intonasiyaların, ritmik strukturun, dinamik inkişafın, tembr xüsusiyyətlərinin və s. vəhdəti haqqında təsəvvürlərin əsasında formalaşır. Musiqi əsəri məzmununun dərk edilməsi, eyni zamanda, kompozisiya quruluşunu dərk etmədən və musiqi ifadə vasitələrini aşkarlamadan mümkün deyil. Bu halda əsəri qavramaq üçün emosional–bədii fon yaradan insanın istər musiqi təcrübəsi, istərsə də bütün həyat təcrübəsi böyük rol oynayır.

Musiqi qavrayışı yaradıcı fəaliyyətin, o cümlədən, musiqi pedaqoji fəaliyyətin formalarından biri kimi mürəkkəb prosesdir. Musiqi qavrayışı qiymətləndirməni, yenidən canlandırmanı birləşdirir və bir neçə mərhələyə bölünür. Tədqiqatçı A.N.Soxor sistemli şəkildə struktur yanaşmadan istifadə edərkən, şərti olaraq, musiqi əsərin qavrayışını "ilk və əsas" deeyə iki mərhələyə bölür. İlk mərhələ əsərə marağın yaranmasından və onun qavranılması üçün olan məqsəddən əmələ gəlir. Əsas mərhələ dinləməni, anlamanı və musiqini duymağı, onun şərhini, qiymətləndirilməsini özündə birləşdirir.Alim hesab edir ki,sadə musiqi formalarını qavrayarkən dinləyicilərdə oxşaq assosiativlik növü yaranır. Tədqiqatçı Huqo Riman musiqi-obrazlı təsəvvürlərin öyrənilməsini çox aktual məsələ hesab edirdi. Onların meydana gəlməsinin və fəaliyyətinin psixoloji əsaslarını bilmək musiqinin vahid qavranılması üçün şərait yaratmağa imkan verir. Qavramanın texniki tərəfi – ilkin, ikinci dərəcəli təsəvvürlərin qarşılıqlı əlaqəsindədir.

Beləliklə, obrazlı təsəvvürlər anlayışının fəlsəfi və psixoloji təriflərinin retrispektiv təhlili onu müxtəlif psixoloji proseslərin tərkib hissəsi kimi nəzərdən keçirilməsi tendesiyasının qərəzli olduğunu ifadə etməyə imkan yaradır. Bir tərəfdən yaddaşın, təfəkkürün fəaliyyəti kimi, digər tərəfdən isə appersepsiya əsasında musiqinin qavranılması kimi.

Obrazlı təfəkkür prosesi məktəblinin sehni fəaliyyətinin göstəricisi kimi çıxış edir. Xüsusilə musiqi yaradıcılığında obrazlı təfəkkür şagirdin emosional vəziyyəti ilə başlayır. Bu baxımdan onlarda müsbət emosional tonusun yaranması üçün müvafiq şəraririn yaradılması məntiqli görünür. Aydındır ki, bunun üçün musiqi müəllimi humanist münasibət, məktəblilərin estetik maraqlarına uyğun

musiqi repertuarının seçilməsi, bədii yaradıcılıqları nəticələrinin düzgün və həssas qiymətləndirilməsi prinsiplərini rəhbər tutmalıdır.

Dünya musiqi pedaqogikasının nəzəri və praktiki təcrübəsi musiqi qavrama mədəniyyətinin dinləyicinin bədii şüur səviyyəsindən asılılığına dəlalət edir. Musiqi təfəkküründün tipik əlaməti kimi onun obrazlılığı çıxış edir ki, o, bu sənət növünün intonasiya təbiəti ilə, ifadə vasitələrinin spesifikası, əsərin məzmununu dərk etmək üçün birgə yaradıcılıq xarakteri daşıması ilə şərtlənir. Bütövlükdə insanın musiqi şüurunun bu xüsusiyyəti elementar kompozisiyanın məntiqini dərk etmək, əsərlərin səslənməsində texniki və bədii oxşarlıq, fərqləri tapmaq, öz obrazlı təsəvvürlərini təhlil etmək, ümumiləşdirmək bacarığı ilə xarakterizə olunur.

Məğzinə görə obrazlı təsəvvürlər təfəkkürün səbəb-nəticə xarakterini əks etdirir. Obrazlı təsəvvürlərin forma və məzmunu onun məkan, zaman, əxlaqi-estetik, bədii, musiqi, mövzu mahiyyətindən xəbər verir. Öz növbəsində, qavrama, yaddaş, təxəyyül, təfəkkür və digər psixoloji proseslər ilə fərdi spesifik üslubla əlaqəli olan uşağın obrazlı təsəvvürləri ümumiləıdirilmiş bütövlüyü ilə xarakterizə olunur.

Onlar uşağın həyatı və təlim təcrübəsinə əsaslanır. Uşaqlarda fantaziyanın intensivinkişafına baxmayaraq, onların musiqinin obrazlı təfsiri məzmun mənalığı və konkretliyi ilə seçilir.

Bədii əsər bəstəkarın, ifaçının və dinləyicinin obrazlı təfəkküründün həm obyekti, həm də nəticəsidir. Ezoterik prosesin hər bir iştirakçısının yaradıcı təxəyyülü kompozisiyada xüsus i xarakterik nüansların müəyyən edilməsi ilə əlaqəlidir. Bəstəkarın təfəkkürü mənəvi ehtiyacın, peşəkar fəaliyyətin və ya ictimai sifarişin tələb etdiyi eksklüziv bədii məhsul yaratmaq problemini həll edir. İfaçının təfəkkürü not mətbnini "desifrə edilməsi" və orijinal ifası ilə məşğuldur. Dinləyici təfkkürünün birgə yaradaıcılıqda iştirakı isə təqdim olunmuş əsərin emosional-obrazlı dərk edilməsində cəmləşir. Burada əsas rolu musiqinin məzmunu təşkil edir. Onun məzmunu tükənməzdir. Dinləyici tərəfindən isə onun təfsiri gözlənilməz ola bilər. O, təkcə əsərin obyektiv səslənməsi ilə deyil, ilk növbədə, onun subyektiv qavranılmsı, dinləyicinin nə dərəcədə musiqi informasiyanı dərk edə bilməsi, onun emosional əhvalı ilə şərtləndirilir.

Beləliklə, musiqinin məzmunu duyğulu, obrazlı və rasional komponentlərdən ibarətdir və onun dərk edilməsi üçün musiqi müəllimi şagirdlərə qavrama mədəniyyətini, təxəyyülü, həssaslığı və eyni zamanda, məntiqi təhliletmə bacarığını aşılamalıdır.

Musiqi qavramanın nəticəsi kimi məmnunluqla yanaşı həm də fəal idrak, həyəcan, musiqi əsəri məzmununun estetik dəyərləndirilməsi çıxış edir. Bu prosesdə təxəyyülün xüsusi əhəmiyyəti var. Musiqi təxəyyülünün əsasını obrazlı təsəvvürlər təşkil edir. Həyati təcrübə müxtəlif fənlərə dair biliklərin sintezi, mənəvi-estetik ideallar təxəyyülün mənbəyidir. Təxəyyül insanın istənilən fəaliyyətinə xasdır. Lakin məhz musiqi qavrama və obrazlı təfəkkür prosesində o

xüsusi rol oynayır. Görkəmli alim B.M.Teplovun fikrinə görə, musiqi təxəyyülün fərqliliyi eşitmə yolu ilə yaranan assosiasiyalarla müəyyən edilir.

Təxəyyül ancaq qavramanın nəticəsi olaraq deyil, həm də fəal bədii yaradıcılıq üçün vadaredici impuls kimi çıxış edir. Bu yaradıcılığın nəticələri həm musiqi əsərlərində, ifaçılığında və dinləyicidə yaranan obrazlarda da öz əksini tapır.

Tədqiqatçı V.K.Beloborodova musiqinin qavranılmasına "bəstəkar və dinləyicinin birgə yaradıcılıq prosesi" kimi qəbul edirdi. Burada alim "birgə keçirilən həyəcanı və bəstəkarın əsərinin təxəyyül vasitəsilə dinləyicinin daxilində onun təcrübəsi hissləri, assosiasiyaları ilə zənginləşdirərək sanki yenidən yaradılmasını" nəzərdə tutur. (6) Bu zaman emosiyalar və estetik həyəcan şagirdin əqli fəallığı üçün başlanğıc şərti və fəaliyyətinin tənzimləyicisi kimi çıxış edir.

Yaradıcılıq fəaliyyətində məmnunluq, zövqalma, uğur, özünəgüvən və onlara tam əks olan emosiyalar böyük əhəmiyyət kəsb edir. Bunlar əqli əməliyyatlar nəticəsində müvafiq obrazlı təsəvvürlərə çevrilirlər.

Musiqi əsərinin spesifikliyinə baxmayaraq, şagirdlərin təsəvvürləri daha çox bədii obrazda toplanmış həyat konteksti ilə sintez olunur. Bununla yanaşı, musiqini qavrama mədəniyyəti onların səs yüksəkliyi, tempo – ritmik, dinamik, tembr xüsusiyyətlərini və konkret əsərin kompozisiya quruluşunu aydınlaşdıra bilmək qabiliyyətləri ilə əlaqəlidir. Yalnız bu şərtlərdə məktəblilərin emosional reaksiyası və obrazlı təsəvvürləri ən azı müəyyən dərəcədə musiqinin obrazlı məzmunu ilə münasib olacaq.

Yuxarıda qeyd etdiklərimizə əsaslanaraq aşağıda verilən qanunauyğunluqlar nəzərə alınmalıdır:

a) məktəblilərdə qeyri-müəyyən assosiativliyin yaranması və cəmləşməsi onların fəal bədii fəaliyyəti ilə müəyyən edilir;

b) məktəblilərdə obrazlı təsəvvürlərin inkişafının başlanğıc şərti onların estetik tezaurusunun, yəni estetik anlayışlar toplusunun mövcudluğudur;

c) məktəblilərin musiqini qavrama mədəniyyəti səviyyəsinin yüksəlməsi təhsil prosesində həyata keçirilir.

Belıliklə, biliklərin sintezi vasitəsilə yaranan inteqrasiya nəticəsində musiqini qavrama, təxəyyül və təfəkkür psixoloji prosesləri birgə fəaliyyət göstərərək məktəblinin musiqi qabiliyyətlərini və ümumilikdə mədəniyyətini formalaşdırır.

ƏDƏBİYYAT

1. Əlizadə Ə. – Ümumi psixologiya. – Bakı, XXSQ, 2014, 363 s.

2. Rzayeva F. – Musiqi müəllimi hazırlığı musiqi tədrisi və tərbiyəsinin əsas amili kimi. – Pedaqoji Universitetin Xəbərləri №2, 2004, səh. 22-24

3. Аристотель – «О душе» - М.:РИПОЛ классик, 2018, 260 стр.

4. Аристотель – «О памяти и припоминании». – Перевод С.В.Месяц, изд. Наука, 2004, стр.161-169

5. Аскольдов С.А. – Философия и религия Фехнера.//Вопросы философии и психологии. 1975, 180 стр.

6. Белобородова В.К. – Музыкальное восприятие (к теории вопроса).// В сб. Музыкальное воспитание школьников. – М., 1975,стр.22-24

7. Кант И. – Критика чистого разума. – М.,2014, 169 стр.

8. Риман Ф. – Музыкальный словарь. В 3-х томах.–Москва-Лейпциг, 1901, 605 с.

Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.05.2026
Məqalənin çapa qəbul olunma tarixi: 14.05.2026
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.